*UOT 37.0*

***Həmidə İsgəndər qızı Qasımova,***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
https://orcid.org/0009-0003-2850-5959

# X-XI SİNİF ŞAGİRDLƏRİNDƏ TƏŞKİLATÇILIQ QABİLİYYƏTLƏRİNİN FORMALAŞDIRILMASI ÜMUMTƏHSİL MƏKTƏBİNİN MÜHÜM VƏZİFƏSİ KİMİ

***Гамида Искендер гызы Гасымова,***
*диссертант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

# ФОРМИРОВАНИЕ ОРГАНИЗАЦИОННЫХ НАВЫКОВ У УЧАЩИХСЯ X-XI КЛАССОВ КАК ВАЖНАЯ ЗАДАЧА ОБЩЕОБРАЗОВАТЕЛЬНОЙ ШКОЛЫ

***Hamida İsgəndar Gasımova,***
*doctorial student in the program of doctor of philosophy*
*Institute of Education of the Republic of Azerbaijan*

# FORMATION OF ORGANIZATIONAL SKILLS OF STUDENTS OF THE X-XI GRADES AS AN IMPORTANT TASK OF A GENERAL EDUCATIONAL SCHOOL

**Xülasə.** Hər bir şəxs təşkilatçılıq qabiliyyətinə malik olmalıdır. Təşkilatçılıq qabiliyyətinə yiyələnmə şəxsiyyətin fəallığına dəlalət edir.

Ailədə valideynlər, ailənin digər yaşlı üzvləri, uşaq bağçasında tərbiyəçilər, ümumtəhsil məktəblərində, institut, universitet və kolleclərdə müəllimlər bu istiqamətdə təhsilalanlarla iş aparırlar.

Məqalə yuxarı sinif şagirdlərində təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılmasına həsr edilmişdir.

***Açar sözlər**: yuxarı sinif şagirdi, təşkilatçılıq, təşkilatçılıq qabiliyyəti, təşkilatçılıq qabiliyyətinin formalaşdırılması, müəllimin rəhbər rolu*

**Резюме.** У каждого должны быть организаторские способности. Приобретение организаторских способностей свидетельствует об активности личности. В семье с учащимися в этом направлении работают родители, другие пожилые члены семьи, воспитатели детских садов, преподаватели общеобразовательных школ, институтов, вузов и колледжей.

Статья посвящена формированию организаторских способностей у старшеклассников.

***Ключевые слова**: старшеклассник, организованность, организаторские способности, формирование организаторских способностей, лидерская роль учителя*

**Summary.** Everyone should have organizational skills. The acquisition of organizational skills indicates the activity of the individual.

Parents, other elderly family members, kindergarten teachers, teachers of general education schools, institutes, universities and colleges work in this direction in a family with students. The article is devoted to the formation of organizational skills in high school students.

***Key words:** high school student, organization, organizational skills, formation of organizational skills, teacher's leadership role.*

Yuxarı sinif şagirdlərinin nümunəvi şəxsiyyət kimi təşəkkül tapıb formalaşmasında bir çox vasitələrdən istifadə olunur. Həmin vasitələr arasında təşkilatçılıq qabiliyyətlərinə yiyələnmə özünəməxsus rol oynayır.

Respublikamızda aparılan təhsilin modernləşdirilməsi məktəbli şəxsiyyətinin qabiliyyətlərini inkişaf etdirməyin və təşkilati keyfiyyətlərlə təmin etməyin səmərəli yollarını və vasitələrini müəyyənləşdirməyi vacib bilir. Bilik

və bacarıqlara yiyələnmə prosesinin sürəti, dərinliyi, rahatlığı və gücü insanın yiyələndiyi zəruri qabiliyyətlərdən asılıdır. Bu imkanlar fəaliyyətin mənimsənilməsində əhəmiyyətli uğurların, yüksək göstəricilərin qazanılmasına imkan və şərait yaradır.

Hər bir şəxs təşkilatçılıq qabiliyyətinə malik olmalıdır. Təşkilatçılıq qabiliyyətinə yiyələnmə şəxsiyyətin fəallığına dəlalət edir.

Ailədə valideynlər, ailənin digər yaşlı üzvləri, uşaq bağçasında tərbiyəçilər, ümumtəhsil məktəblərində, institut, universitet və kolleclərdə müəllimlər bu istiqamətdə təhsilalanlarla iş aparırlar.

Şagirdlərin təşkilatçılıq qabiliyyətlərinin formalaşmaşdırılması üzrə işə uşaqlar hələ kiçik yaşlarında ikən başlamaq lazımdır. Bu sahədə valideynlərin – ata və anaların, ailənin digər yaşlı üzvlərinin üzərinə mühüm vəzifələr düşür.

Tədqiqatlar göstərmişdir ki, təşkilatçılıq bacarıqları pedaqoji fəaliyyətin zəruri tərkib hissəsidir.

Mövcud ədəbiyyatın araşdırılmasından görünür ki, respublikamızda T.M. Muradova öz namizədlik dissertasiyasında təhsilalanlarda təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılmasına bu və ya digər dərəcədə toxunmuş, MDB respublikalarında S.V. Oskina, V.Q. Suranov, S.V. İvanova, A. Nikitçenko haqqında danışılan problemin müxtəlif aspektlərini araşdırmışlar.

Təşkilatçılıq fəaliyyəti ictimaiyyətlə əlaqələr sahəyə aiddir və hər hansı bir işdə birgə fəaliyyət göstərərək insanların bir-biri ilə olan şəxsiyyətlərarası münasibətlərində özünü göstərir. Təşkilatçı həmişə liderdir, lakin təşkilati fəaliyyət həmişə fərdi olur və lider həm fərdi, həm də qrup (kollektiv) ola bilər.

Təşkilatçılıq fəaliyyəti sistematik kollektiv iş, hər birinin imkanlarının düzgün nəzərə alınması, qüvvələrin və vasitələrin yerləşdirilməsi və paylanması, bütün vəziyyətlərin balanslaşdırılmış hesablanmasını tələb edir.

Təşkilatçılıq qabiliyyətlərinin səmərəli şəkildə formalaşdırılması üçün şagirdlərlə iş aparan müəllimlər üçün aşağıdakılar vacibdir:

1. Müəllim, hər şeydən əvvəl özü təşkilatçılıq qabiliyyətinə malik olmalıdır ki, şagirdlərə nümunə göstərə bilsin.
2. Təşkilatçılıq qabiliyyətlərinin strukturu və komponentləri aydın başa düşülməlidir.
3. Təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılması modeli aydın təsəvvür edilməlidir.
4. Müəllimlər şagirdlərin təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılmasının psixoloji-pedaqoji əsaslarına bələd olmalıdırlar.

Təşkilatçılıq qabiliyyətləri şəxsiyyətin fəaliyyətində təzahür edən və sıx surətdə bir-biri ilə bağlı olan komponentlərdən ibarət mürəkkəb struktura malikdir. Müəllim ona nail olmalıdır ki, şagirdlər təşkilatçılıq bilik və bacarıqlarına yiyələnsinlər ki, müvafiq qabiliyyət nümayiş etdirə bilsinlər, öz hərəkət və əməllərinə, davranış və rəftarlarına görə məsuliyyət daşısınlar, öz işlərini həvəslə, ürəklə görsünlər, perspektivi aydın təsəvvür etsinlər, özünütəhsil və özünütərbiyə ilə məşğul olsunlar.

Ümumtəhsil məktəblərində ayrı-ayrı fənlərin təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici funksiyalarının nəzərə alınması şagirdlərdə digər qabiliyyətlər kimi təşkilatçılıq qabiliyyətlərinin də inkişaf etdirilməsinə öz köməyini göstərir. Həmin sahədə müəllimin rolu böyükdür. Deməli, məktəbdə təlim prosesinin imkanlarından faydalanmaq lazımdır. Bu baxımdan X-XI siniflərdə Fiziki tərbiyə və Çağırışaqədərki hazırlıq fənlərinin imkanlarından istifadə edilməsi məqsədəuyğun hesab edilir.

Yuxarı sinif şagirdlərində təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılmasında sinifdənxaric tədbirlər mühüm əhəmiyyətə malikdir. Sinifdənxaric işin söhbət, yarış, müzakirə və disput, adlı-sanlı adamlarla, Vətən müharibəsi qəhrəmanları və iştirakçıları, qazilər, elm, mədəniyyət, incəsənət, idman xadimləri, yazıçı və şairlərlə görüşlər, müsabiqələr, viktorinalar, şagird konfransları, dəyirmi masa ətrafında görüşlər, dəyirmi masa ətrafında görüşlər, kinofilmlərə, televiziya və teatr tamaşalarına, sərgilərə baxışlar, məktəbdə müxtəlif klub və dərnəklərin işi zəngin imkanlar açır.

Məktəblilərin, o cümlədən yuxarı sinif şagirdlərinin təşkilatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsinə pedaqoji rəhbərlik həyata keçirilməlidir. Qabaqcıl təhsil müəssisələri “Bilirəm, bacarıram və başqalarını da öyrədəcəyəm” proqramı üzrə öz fəaliyyətlərini davam etdirirlər. Nəticə etibarilə “təşkilatçı”, “təşkilatçı-köməkçi”, “təşkilatçı müəllim” rolları uğurla yerinə yetirilir.

Təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılması sahəsində pedaqoji kollektiv üzvlərinin şagirdlərlə işləri tələb olunan şəkildə qurmaq səyində olmamaları bəzi səbəblərdən irəli gəlir. Həmin səbəblər aşağıdakılardır:

1. X-XI sinif şagirdlərində təşkilatçılıq qabiliyyətinin, təşkilatçılıq şüurunun, inkişaf etdirilməsi və həmin xüsusda təşkilatçılıq təcrübəsinin tərbiyə olunmasının zəruriliyinin yetərincə dəyərləndirilməməsi ucbatından;

2. Yeni pedaqoji təfəkkürün tələblərinə bələdliyin lazımi səviyyədə olmaması səbəbindən;

3.Yuxarı sinif şagirdlərində təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılmasının üzrə işin səmərəli yollarının aydın təsəvvür edilməməsi səbəbindən;

4. Nəzəri və metodik hazırlıqların zəif olması səbəbindən;

5. Pedaqoji kollektivlərin bəzi üzvlərinin pedaqoji ustalıqlarının kifayət etməməsi səbəbindən;

6. Şagirdləri pedaqoji prosesin bərabərhüquqlu üzvləri kimi qəbul etməmək səbəbindən;

7. Yuxarı sinif şagirdlərində təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılması prosesinə pedaqoji rəhbərliyin tələb olunan səviyyədə təşkil edilməməsi səbəbindən;

8. Yuxarı sinif şagirdlərində təşkilatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsi üzrə işdə pedaqoji kollektiv üzvlərinin əlbir fəaliyyət göstərməməsi, tələblərdə vahidlik prinsipinin gözlənilməməsi səbəbindən;

9. Şagirdlərdə təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılması probleminə aid metodik vəsaitin, kitab və kitabçanın olmaması səbəbindən və s.

Ölkə Prezidenti cənab İlham Əliyev demişdir: "*Uşaqlar cəmiyyətimizin sabahıdır. Onların qayğısız böyüməsi, yüksək standartlara cavab verən təlim-tərbiyə və tibbi xidmətlərlə təmin edilməsi, əlverişli sosial mühitdə fiziki və mənəvi baxımdan sağlam yetişməsi, habelə* öz istedadlarını nümayiş etdirmələri üçün *zəruri şəraitin yaradılması bizim əsas məqsədlərimizdəndir*".

Yuxarıdakı iqtibasdan göründüyü kimi, ölkə Prezidenti uşaqların, o cümlədən şagirdlərin *öz istedadlarını nümayiş etdirmələri* üçün təhsil müəssisələrində və ailələrdə lazımi şəraitin yaradılmasını vacib bilir. Bu mənada məktəblilərdə, o cümlədən yuxarı sinif şagirdlərində müstəqillik, təşəbbüskarlıq, ümumi fəallıq və idrak fəallığı inkişaf etdirilməli, onlarda təşkilatçılıq qabiliyyətləri formalaşdırılmalıdır.

Öz iradəsini, əzmkarlığını, dözümlülüyünü nümayiş etdirmək və pedaqoji rəhbərliyi səmərəli şəkildə həyata keçirmək, tərbiyəolunanların davranışlarına nəzarət etmək təhsil fəaliyyətinin səmərəliliyini artırmağa imkan verir.

Şagirdlərin öz güclü və zəif tərəflərini dərk etmələrinə ictimai rəyin, tənqidin və özünütənqidin təşkili kömək göstərir.

Təşkilatçı şagirdin öz yoldaşlarının psixologiyasını, hiss və düşüncələrini yaxşı başa düşməsi təşkilatçılıq fəaliyyətində daha optimal nəticələrə yiyələnməyə şərait yaradır.

Sinifdənxaric fəaliyyət zamanı şagirdlər tərəfindən intizamın pozulması halları müşahidə olunarkən əlverişli və münasib davranış tərzinin seçilməsi mühüm tələblərdən biridir. Səmərəli pedaqoji tələblər irəli sürmək, onların yerinə yetirilməsinə nail olmaq, tərbiyəvi funksiyanı yerinə yetirmək vacibdir.

Tədqiqatdan görünür ki, şagirdlərin kollektivə və şəxsiyyətə səmərəli tərbiyəvi təsir göstərmək məqsədi ilə istifadə etdikləri özünütəlimatlandırma, öz-özünə əmr və özünə yüksək tələbkarlıq təşkilatçılıq qabiliyyətlərinin mühüm atributları kimi çıxış edir.

Öz diqqətini səfərbər edə bilmək, gözlənilməz vəziyyətlərə həmişə hazır olmaq, özözünü təlimatlandırma məktəbli kollektivini və təhsilalanları, o cümlədən yuxarı sinif şagirdlərini daha tez və əlverişli şəkildə təşkil etməyə, onların nümunəvi davranışına nail olmağa kömək göstərir. Yeni pedaqoji təfəkkür xarakterik xüsusiyyəti təhsilin praktik həyatyönümünün gücləndirilməsini tələbata çevirir.

Təşkilatçılıq qabiliyyətlərinin struktur komponentlərinə aiddir: biliklər, bacarıqlar, motivasiya, dəyər münasibətləri, şəxsi keyfiyyətlər, özünütəhsilə cəhd və tələbat.

Təşkilatçının modelinin təsəvvürə gətirilməsi də az əhəmiyyət daşımır. Bu modeldə təşkilatçılıq qabiliyyətlərinin başlıca xarakteristikaları öz əksini tapmışdır. Bunlar da funksional-əşyavi (təşkilatçılıq bilik və bacarıqları), şəxsiyyətyönlü (səbatlı-müsbət motivasiya, təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılması prosesinə dəyərli münasibət), şəxsi keyfiyyətlər (məsuliy-

yət, mobillik və s.), perspektiv sahə (özünütəhsilə qabillik və informasiya mənbələrinin müstəqil axtarışı, təşkilatçılıq qabiliyyətlərinin obyektlərinin müəyyənləşdirilməsi və s.) özündə ehtiva edir.

Təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılması səviyyəsi ibtidai, orta, kifayət və yüksək səviyyəli olur. Təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılmasının ibtidai və orta səviyyələri şəxsiyyətə (bizim tədqiqatda yuxarı sinif şagirdinə) imkan verir ki, reproduktiv (icraçılıq) təşkilatçılıq fəaliyyətinə qoşulmağa, kifayət və yüksək səviyyəyə keçidə, məktəblinin fəal mövqe qazanmasına, müstəqil təşkilatçılıq fəaliyyətinə (subyekt kimi) başlamasına imkan verir.

Təşkilatçılıq qabiliyyətləri şəxsiyyətin çox mühüm keyfiyyətlərindən biri sayılır. Hər bir insan bu qabiliyyətə yiyələnməlidir, hər şeydən əvvəl həyatda fəal mövqe tutmaq üçün. Həmin keyfiyyət yaxşı olar ki, böyüyən nəsildə kiçik yaşlarından tərbiyə edilsin. Gələcəkdə öz fəaliyyətini, kollektivin, ailəsinin, cəmiyyətin həyatını və fəaliyyətini təşkil və idarə etmək üçün.

Təşkilatçılıq qabiliyyətləri kommunikativ qabiliyyətləri, praktik ağılı və təfəkkürü özündə birləşdirir. Bu qabiliyyətlər ona başqalarını hərəkətə gətirmək və fəallaşdırmaq, tapşırılan işi (məktəbdə dəyirmi masanı, müzakirə və disputu, ekskursiyanı həyata keçirmək və s.) yaxşı təşkil edə bilmək üçün lazımdır.

Təşkilatçılıq qabiliyyətləri şəxsiyyət qabiliyyətlərinin ümumi quruluşunu təşkil edən keyfiyyətdir. Təşkilatçılıq qabiliyyəti təşkil etmək, yəni başqa adamların səylərini hər hansı vəzifənin yerinə yetirilməsinə istiqamətləndirmək bacarığında öz ifadəsini tapır.

Təşkilatçılıq qabiliyyətləri kollektivin psixologiyasını bilməyi tələb edir. Yaşlı adamların, böyüklərin təcrübəsindən bəhrələnən şagirdlər öz yaradıcı təşkilatçılıq qabiliyyətlərini təzahür etdirmək imkanı qazınırlar, hələ orta təhsil illərində ikən praktik təcrübəyə yiyələnirlər. Bu mənada ailədə və məktəbdə təhsil və tərbiyə sistemində təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılması önəmli yer tutmalıdır. Bu sahədə təlim prosesi və sinifdənxaric tədbirlərin rolu böyükdür. Xüsusən sinifdənxaric tədbirlər məktəblilərin təşkilatçılıq qabiliyyətlərinə və səriştəsinə yiyələnmələrinə kömək göstərir.

Məqalədə nəzərdən keçirilən məsələlərlə bağlı aşağıdakı təklifləri irəli sürmək mümkündür:

1. Müxtəlif yaş dövrləri üzrə təhsilalanlarla təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılması və inkişaf etdirilməsi problemləri üzrə tədqiqatların davam etdirilməsi məqsədəuyğundur.

2. I-XI sinifləri əhatə edən "Ümumtəhsil məktəblərində sinifdənxaric və məktəbdənkənar tədbirlər proqramı"nın hazırlanıb nəşr olunması son dərəcə faydalıdır. Həmin proqramda sinifdənxaric və məktəbdənkənar işin, milli tərbiyənin müxtəlif tərkib hissələrinin ayrı-ayrı formalarının, məzmununun əhatə olunması, eyni zamanda təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılmasına istiqamətlənmiş tədbirlərin nəzərdə tutulması lazım bilinir.

3. I-XI sinifləri özündə birləşdirən "Şagirdlərdə təşkilatçılıq qabiliyyətlərinin formalaşdırılması" adlı monoqrafiyanın hazırlanaraq nəşr edilməsi məsləhətdir.

**Tədqiqatın aktuallığı**. Hər bir şəxs təşkilatçılıq qabiliyyətinə malik olmalıdır. Məqalənin bu problemi əhatə etməsi aktuallığı ilə seçilir.

**Tədqiqatın yeniliyi.** Yuxarı sinif şagirdlərində təşkilatçılıq qabilyyətlərinin formalaşdırılması diqqət mərkəzinə gətirilir.

**Tədqiqatın praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılarda maraq doğuracaqdır.

**Ədəbiyyat**:
1. Abbasov, A.N. Pedaqogika: Müntəxəbat: Ali təhsil müəssisələri üçün dərs vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. -Bakı: -Mütərcim, -2022.
2. Abbasov, A.N. Pedaqogika: nəzəriyyəsi və tarixi: Ali təhsil müəssisələri üçün dərslik / A.N. Abbasov, L.A. Məmmədli., İ.B. Əmirəliyeva. -Bakı: -Mütərcim, -2022.

**E-mail:** hamida15@mail.ru
**Rəyçilər**: *ped.elm.dok., prof.* **A.N. Abbasov,**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub:** 03.07.2023